İlqar Rəsul

# Allah qapını açsın...



*Bir nəfər taksidə gedir. Görür, yandan keçən maşınlar yavaşıdıb sürücüyə - Qardaş, qapın açıq qalıb -deyirlər. Sürücü də sakitcə - çox sağ ol, bilirəm - cavab verib, yoluna davam edir. Axırda sərnişin dözmür, dillənir:*

*- Qardaş o qapını yaxşı ört, bağlansın, canın qurtarsın də bu xatırlatmalardan!*

*Sürücü qayıdır ki, - bacıoğlu, cəhd etmişəm ey, bağlanmır. Dördüncü ildir, bu qapı belədir.*

*- Elə niyə?*

*- Uzun məsələdir.*

*- Uzunu-filanı yoxdur. Ustanın əlində yarım saatlıq işdir. Düzəltdirsənə - deyə sərnişin etiraz edir.*

*- Ona da cəhd eləmişəm, - sürücü təmkinlə cavab verir - alınmayıb. Neçə ustaya apardım, düzəlmədi. Axırda qapını dəyişdim, yenə xeyri olmadı.*

*- Bəs,deyən yoxdur ki, nə məsələdir?*

*- Ustalar bilmədilər sirrini. Mollaya da aparmışam bu maşını, xeyri yoxdur.*

*- Mollanın nə dəxli var ey, sən də. Heç mollanın yeridir? - Sərnişin gileylənir.*

*- Varıymış bacıoğlu-sürücü dillənir-varıymış. Molla tapdı dərdini. O vaxtdan day vecimə deyil açıq qalması.*

*- A kişi, ayıbdır, camaatı özünə güldürmə. Molla qapının dərdini bilən idisə, dərmanını da deyəydi də. Qapın ki, yenə də bağlanmır!*

*- Dedi də.*

*- Nə dedi?!-sərnişin dəli olmağa başlayır.*

*- Dedi, bir ildən sonra bağlanacaq. Artıq altı ayı qalıb.*

*- A kişi, sən nə danışırsan, nə üç ildi belədi, nə bir il, nə altı ay, dolamısan məni! -Sərnişin əməllicə hirslənir.*

*- Hirslənmə bacıoğlu, hirslənmə. Səbəbini bilsən, belə deməzsən - sürücü sərnişini sakitləşdirir.*

*Sərnişin səbirsizliklə səbəbi eşitmək istəyir-de görək nədir də səbəb, molla necə bildi bu çər dəymiş qapının dərdini?!*

*- Molla çox fırlandı maşının başına. Dua oxudu, əlini çəkdi, öpdü, oxşadı, xeyri olmadı. Axırda məndən soruşdu ki, həbsdə olmamısan?,- sürücü danışır.- dedim, olmuşam, həm də dörd il. Molla dedi, necə ildir çıxmısan? Dedim, üç il. Dedi ki, aydınır, sən bu qapını düzəltdirməyə çalışma, maşını dəyişsən də xeyri olmayacaq. Bir ildən sonra, vaxtı gələndə, özü bağlanacaq.*

*Sürücü görür, sərnişin lap hövsələdən çıxır, söhbəti qısa eləyir:*

*- Deməli, bacıoğlu, sən demə, məsələ belə imiş. Mən taksidə qəza törədib, beş il cəza almışdım. Dörd ildən sonra əfv olundum. Bu dörd ili mən içəridə olanda, çöldə qohum-əqrəba, dost-tanış, el-oba hər gün səhərdən axşamacan o qədər "Allah qapısını açsın" deyiblər ki (mənim də əsas qapım taksinin qaısıdır axı), maşının qapısı dözməyib, rəsmən otkaz gedib. İndi altı aydan sonra - içəridən çıxmağımın dörd ili tamam olanda, molla demiş, maşının qapısı bağlanacaq…*

Ədalət.- 2020.- 7 may. S. 5.